"Təsdiq edirəm"
Azərbaycan Turizm və Menecment Universitetinin
rektor səlahiyyətlərini icra edən
dos. Eldar Aslanov
sentyabr 2016-cı il

Azərbaycan Turizm və Menecment Universitetinin "İngilis dili" kafedrasının 2016/2017-ci tədris ili üçün İŞ PLANI

№	Görülən işin məzmunu	İcra müddəti	İcraçı	Qeyd
1	Kafedra iclaslarının keçirilməsi	Ayda bir dəfədən az olmayaraq	Kafedra müdiri və kafedranın əməkdaşları	
2	ATMU-ya qeydiyyata gələn birinci kurs tələbələrinin ingilis dili səviyyəsinin yoxlanaraq müəyyənləşdirilməsi və 4 səviyyə üzrə ingilis dili qruplarında komplektasiyası	Avqust, qəbul nəticələrinin açıqlandığı ilk on gün	Kafedra müdiri və kafedranın əməkdaşları	Dekanlıq ilə əlaqəli şəkildə
3	2016/2017-ci tədris ili üçün kafedranın əməkdaşlarının tədris yükünün müzakirəsi və təsdiqi	Sentyabrın ilk həftəsi	Kafedra müdiri və kafedranın əməkdaşları	Dekanlıq ilə əlaqəli şəkildə
4	ATMU-nun hazırlanan yeni saytının ingilis dilinə tərcümə edilməsi	Sentyabr, oktyabr	Kafedranın əməkdaşları	
5	Fənn komissiyalarının sədrlərinin seçilməsi	Sentyabr	Kafedra müdiri və kafedranın əməkdaşları	Kafedra iclası
6	Müxtəlif fənlər üzrə keçiriləcək açıq dərslərin qrafikinin müəyyənləşdirilməsi	Sentyabr, yanvar	Kafedra müdiri və fənn komissiyaları	
7	Buraxılış işlərinin mövzularının müzakirəsi və təsdiqi	Sentyabr	Kafedranın müəllim heyəti	
8	Kurs işi mövzularının müzakirəsi və təsdiqi	Sentyabr, fevral	Kafedranın müəllim heyəti	
9	Kafedrada elmi seminarların keçirilməsi	Ayda bir dəfə	Kafedra əməkdaşları	
10	Müxtəlif fənlər üzrə kafedra əməkdaşlarının açıq dərslərinin dinlənilməsi və müzakirəsi	Mütəmadi	Kafedranın əməkdaşları	
11	İmtahan materiallarının hazırlanması və müzakirəsi	Mütəmadi	Fənn komissiyaları	
12	Kafedranın tədris etdiyi fənlər üzrə yeni fənn proqramları, dərslik və dərs vəsaitlərinin hazırlanması	İl ərzində	Kafedranın müəllim heyəti	
13	Kafedranın tədris etdiyi fənlər üzrə elektron tədris materiallarının toplanması və	İl ərzində	Fənn komissiyaları	

	zənginləşdirilməsi			
14	Gənc müəllimlərin ABŞ səfirliyinin ADU-dakı mərkəzində təşkil edilən "ABŞ-ı öyrənək" (*Getting to know the USA)* həftəlik seminarlarında iştirakı	Oktyabr - may	Kafedranın gənc müəllimləri	
15	Kafedrada kadr potensialının Avropa standartlarına uyğun formalaşdırılması üzrə işlərin aparılması	İl ərzində	Kafedra müdiri və kafedranın əməkdaşları	Dekanlıq və İnsan resursları şöbəsi ilə birgə
16	Qış və yay imtahan sessiyalarının kafedranın fənləri üzrə yekunlarının müzakirəsi	Yanvar, iyun	Kafedra müdiri və əməkdaşlar	Dekanlıq ilə əlaqəli şəkildə
17	Kafedra müəllimlərinin fərdi planlarının müzakirəsi	Yanvar, iyun	Kafedra müdiri və müəllim heyəti	
18	Kafedraya aid olan fənlərdən doktoranturaya qəbul və minimum imtahanları üçün sualların hazırlanması	Oktyabr, aprel	Kafedranın professor-müəllim heyəti	
19	Kafedranın doktorant və dissertantlarının hesabatlarının dinlənilməsi və müzakirəsi	Noyabr	Kafedra müdiri və elmi işlər üzrə müavin	Doktorantura və əlavə təhsil şöbəsi ilə birgə
20	Kafedranın gənc potensialının elmi-tədqiqat işinə, konfranslarda, elmi tədbirlərdə iştiraka istiqamətləndirilməsi	İl ərzində	Kafedra müdiri və elmi işlər üzrə müavin	Doktorantura və əlavə təhsil şöbəsi ilə əlaqəli şəkildə
21	Kafedra əməkdaşlarının 2016-cı ildə yerinə yetirdiyi və 2017-ci il üçün elmi-tədqiqat işinin ATMU-nun elmi-tədqiqat mərhələ planı üzrə müəyyənləşdirilməsi, müzakirəsi və təsdiqi	Noyabr	Kafedra müdiri və elmi işlər üzrə müavin	Tədqiqat və inkişaf şöbəsi ilə əlaqəli şəkildə
22	Kurs işi mövzularının müdafiəsi	Noyabr, aprel	Kafedranın müəllim heyəti	
23	İmtahanların gedişinə, qiymətləndirilməsinə nəzarət	Semestrin sonu	Kafedra müdiri və fənn komissiyaları	
24	Buraxılış imtahanları üçün sualların hazırlanması və müzakirəsi	Noyabr, may	Kafedra müdiri və fənn komissiyaları	Dekanlıqla əlaqəli şəkildə
25	Buraxılış işlərinin ilkin müdafiəsinin təşkili	May	Kafedranın müəllim heyəti	
26	Kafedra əməkdaşlarının çap olunmuş materiallarının (monoqrafiya, dərslik, dərs vəsaiti, metodik tövsiyə, proqram, məqalə, tezislər və s.) toplanması və sistemləşdirilməsi	Mütəmadi	Kafedra müdirinin elmi işlər üzrə müavini	Tədqiqat və inkişaf şöbəsi ilə əlaqəli şəkildə
27	ATMU Elmi Şurasının, TMŞ-nin, rektorluğun qərar və tövsiyələri ilə bağlı məlumatların əməkdaşlara çatdırılması	Mütəmadi	Kafedra müdiri və fənn komissiyaları	Ümumi şöbə ilə əlaqəli şəkildə
28	Kafedra əməkdaşlarının Tədqiqat şöbəsindən təklif olunmuş layihələrdə iştirakı	İl ərzində	Kafedra müdiri və kafedra əməkdaşları	Tədqiqat şöbəsi ilə əlaqəli şəkildə

29	British Council və ABŞ səfirliyinin təqdim etdiyi təhsil layihələrində iştirak	İl ərzində	Kafedranın əməkdaşları	
30	Digər ali təhsil ocaqlarının ingilis dili kafedraları ilə əlaqələrin qurulması	Mütəmadi	Kafedra müdiri və kafedranın əməkdaşları	
31	Tərcümə (ingilis dili) ixtisası üzrə peşə hazırlığında dünya üzrə aparıcı universitetlərin təcrübəsinin izlənməsi, yeni tədris üsul və vasitələrinin ATMU-da tətbiqi	Mütəmadi	Kafedra müdiri və kafedranın əməkdaşları	
32	Tələbələrin ölkə əhəmiyyətli tədbirlərdə könüllü tərcüməçilik fəaliyyəti üçün seçilməsi və hazırlanması	İl ərzində	Kafedranın əməkdaşları	
33	Tərcümə (ingilis dili) ixtisası tələbələrinin təcrübə keçməsi üçün ölkə səviyyəsində olan tərcümə mərkəzləri ilə əlaqələrin yaradılması, müqavilələrin bağlanması	İl ərzində	Kafedra müdiri	Tədris şöbəsi ilə əlaqəli şəkildə
34	Tələbələrin dünyagörüşünün artırılması və seçdikləri ixtisasa maraqlarının yüksəldilməsi ilə bağlı söhbətlərin aparılması	Mütəmadi	Kafedranın əməkdaşları	
35	Tələbələrin ingilis dilinə marağının artırılması və söz ehtiyatının zənginləşdirilməsi məqsədilə ingilis dilində film nümayişlərinin təşkili	İl ərzində	Kafedranın müəllimləri	İnformasiya texnologiyaları şöbəsi ilə əlaqəli şəkildə
36	ATMU-nun keçirdiyi mədəni-kütləvi, ictimai-siyasi tədbirlərdə iştirak etmək	Mütəmadi	Kafedranın əməkdaşları	
37	Tarixi günlərlə bağlı söhbətlərin aparılması	İl ərzində	Kafedra müdiri və kafedranın əməkdaşları	
38	Tələbələrin teatr tamaşalarına və muzeylərə aparılması	İl ərzində	Kafedranın əməkdaşları	Dekanlıqla əlaqəli şəkildə
39	2017/2018-ci tədris ili üçün kafedranın strukturunun müəyyənləşdirilməsi və təsdiqi	May	Kafedra müdiri	Dekanlıq, Tədris və İnsan resursları şöbələri ilə birgə
40	2017/2018-ci tədris ili üzrə kafedranın iş planının hazırlanması və təsdiqi	İyul, avqust	Kafedra müdiri və kafedranın əməkdaşları	Ümumi şöbə ilə əlaqəli şəkildə
41	2017/2018-ci tədris ili üçün fənlər üzrə tədris yükünün müəyyənləşdirilməsi və təsdiqi	Avqust	Kafedra müdiri	Dekanlıq və Tədris şöbəsi ilə birlikdə

İş planı kafedranın 05.09.2016-cı il tarixli iclasında təsdiq olunmuşdur.

"İngilis dili" kafedrasının müdiri **f.ü.f.d., dos. Əzizə Məmmədova**